# Qüdrətli lider

**Azərbaycan tarixində lider mövqeyində olan şəxsiyyətlərin hər birinin üzərinə düşən missiya var. Dövrün tələbi üzrə bu missiyanı kim uğurla yerinə yetirirsə, o, həm də tarixdə qalmağa, həmişə anılmağa layiq olur. Azərbaycan ziyalılarının, düşüncə adamlarının içindən elə şəxsiyyətlər tarixi anda ortaya çıxdılar ki, onlar müstəqil Azərbaycan dövlətini qurdular.**

Bu dövlətin qurulması, əslində, bizim üçün mənbə xarakteri daşıyırdı. Çünki AXC iki ildən az müddətdə yaşamış olsa belə, ideya olaraq, dövlət ruhu olaraq mövcudluğunu müəyyən dərəcədə yetmiş il fasilə ilə yenidən dirçəltməyə imkan yaratdı. Yəni yeni dövrün müstəqillik dalğasında artıq hazır mənbə və təməl üzərində dövlət qurmaq imkanı əldə olundu. Bu, olduqca vacib məqamdır. Bir çox xalqların məhz bu təməli olmadığına görə bizdən bəlkə daha əzmkar mübarizə aparsalar da, müstəqilliyi əldə edə bilmədilər. Elə Şimali Qafqaz xalqlarının nümunəsində bunu görmək mümkündür.

İlk quruculuq illərində ölkə müəyyən təlatümləri yaşamalı idi. Bu təlatümlərin yaşanması hansı qabiliyyətli, hazırlıqlı şəxslərin ölkə rəhbərliyinə gətirilməsi zərurətini yaratdı. Heydər Əliyev məhz belə bir zərurətin liderinə çevrildi. Heydər Əliyev müstəqilliyin təlatümlü anında öz rolunun daha önəmli olduğunu düşünərək o anın yetişməsini gözlədi. Həqiqətən, o an gələndə cəmiyyətin diqqəti başqa səmtə yönəlmədi. Kim ölkəni xaosdan, təlatümdən xilas edə bilər? Bu, Heydər Əliyev obrazını gündəmə gətirərək, onun məhz bu prosesə başçılıq etməsini zərurətə çevirdi. Bu baxımdan hesab edirəm ki, Heydər Əliyevin rolu birinci növbədə öz məqamını gözləyən cəsur qəhrəman rolu idi.

Əslində, bu prosesləri doğru təhlil edəndə görürsən ki, liderin ən böyük xüsusiyyəti lazımi tarixi anda meydana daxil olub öz həlledici rolunu oynamaqdır. Heydər Əliyev müdhiş çətinliklərlə üzləşməsinə baxmayaraq, bu prosesi çox uğurla apardı. Bu çətinlik təkcə daxili vəziyyətlə bağlı deyildi. Azərbaycan kimi kiçik, müstəqilliyini yenicə bərpa etmiş dövlətlərdə xarici aktorları neytrallaşdırmadan hər hansı daxili sabitlik yaratmaq mümkün deyildi. Neytrallaşdırmaq üçün Azərbaycanın əlində elə də böyük vasitələr yox idi. Azərbaycanı himayə edə biləcək Türkiyə dövləti də zəif idi. Bu vəziyyətdə Azərbaycanın yeganə yolu - təbii sərvət faktorunu önə çəkməsi idi. Bu gün Ukrayna da məhz müstəqilliyin qorunması üçün təbii sərvət faktoruna istinad etməli olub, amma bu gecikmiş istinaddır. Çünki hansısa siyasi mülahizə, siyasi qərar bu şəkildə onu xilas etmədi. Onda müəyyən nüvə başlıqları var idi və bunun Ukraynadan çıxarılmasını, təhlükəsizliyinə təminat verilməsini bilavasitə Böyük Britaniya, ABŞ, Rusiya kimi dövlətlər öz üzərinə götürmüşdü. Amma Rusiya hücum edəndə bu təhlükəsizliyin təminatı baş vermədi. Kimsə buna görə Rusiya ilə birbaşa müharibəyə qoşulmadı. Amma Azərbaycan zamanında bu qərarı verməyi bacardı. Neft amili üzərindən koorparasiyaların bilavasitə Azərbaycana cəlb olunması ilə onların arxasında duran dövlətlərin neytrallaşması baş verdi. Neft amili Azərbaycana xaricdən gələn təhlükəni zəiflətdi, eyni zamanda bu daxildə də sabitliyin qorunması üçün hərbi müxalifəti tamamilə zərərsizləşdirdi. Bu, olduqca vacib idi. Həmçinin siyasi müxalifətin də 1995-ci ildə Konstitusiya qəbul edilərkən müəyyən çərçivədə fəaliyyət göstərməsinə nail olundu. Çərçivənin müəyyən olunması vacib idi ki, bəlli dövlətçilik məsələlərində siyasi müxalifətin proseslərə müəyyən dərəcədə neqativ təsir etməsinin qarşısı alınsın.

Bunun ardınca Heydər Əliyev Qarabağ məsələsi üzərindən siyasətdə mümkün ola biləcək ən ağır strategiyanı izlədi. Bütün beynəlxalq platformalarda bu məsələni müzakirəyə çıxartdı. Bu məsələnin Azərbaycanın güclənəcəyi dövrə qədər uzadılmasını təmin etdi. Bu, çox vacib idi, çünki 44 günlük Vətən müharibəsində də bunun nəticələrini gördük. Hər hansı bir dövlətin Qarabağın müstəqilliyini tanımaması, hətta Ermənistanın da bu riskə getməməsi bizim əlimizdə hüquqi avantajı qoruyub saxladı. Azərbaycan qısa müddətdə daha fərqli mərhələyə adlaya bildi və torpaqların azad olunması da məhz bu təməl üzərindən baş tutdu.

Digər tərəfdən, Heydər Əliyev Türkiyə ilə Azərbaycan münasibətlərinin daha praqmatik zəminə çatdırılmasını təmin elədi. Bunun nəticələrini də İkinci Qarabağ savaşında daha aydın gördük. Türkiyə strateji müttəfiq kimi meydanda özünün təsiredici rolunu göstərə bildi.

Heydər Əliyev Azərbaycan parlamentinin formalaşması və orada müəyyən cinahların təmsilçiliyi məsələsini də önəmli saydı. Xüsusilə dövlətçiliyə münasibəti dəyişməz olan siyasi qüvvələrin parlamentar sistem içində yer almasını təmin etdi. Hakim partiya ilə yanaşı, müxalif partiyaların da bu cür rol alması vacib idi. Çünki beynəlxalq təşkilatlarda təmsil olunan Azərbaycanın bu cür müxalif qüvvəsinin xarici auditoriyada Azərbaycan maraqlarını müdafiə etməsi hakim partiyanın imkanlarını da artırırdı. Qarabağ məsələsində bu, xüsusilə böyük əhəmiyyət daşıyırdı.

Ümummilli Lider bu kimi məsələlərlə yanaşı, ədəbiyyatın, incəsənətin, mədəniyyətin inkişafı baxımından da müəyyən prosesləri tənzimləməyi bacardı. Azərbaycanın yaradıcı elitasının qorunması istiqamətində mühüm addımlar atdı. O, bütün bunları kompleks şəkildə Azərbaycanın gələcəyi üçün tarixi məsuliyyət içində gerçəkləşdirməyə çalışdı. Məsələn, burada ən böyük addımlardan biri Naxçıvanın strateji mövqeyinin gücləndirilməsi idi. Çünki Qarabağ savaşında ermənilərin böyük cəbhə aça bilməməsinin əsas səbəblərindən biri məhz Naxçıvan faktoru idi. Burada hərbi gücün, imkanların genişləndirilməsi, yayındırıcı qüvvə olaraq Naxçıvanın erməni faktoruna qarşı təhlükə kimi görünməsi ermənilərin bu şəkildə mobilizasiyasina, səfərbərliyinə mənfi təsir göstərdi. Bu baxımdan, Heydər Əliyevin gələcəklə bağlı strateji addımları Azərbaycanı bu gün suverenliyini tam bərpa etmiş bir dövlətə çevirdi. Suverenlik məsələsi bizim üçün olduqca önəmli idi, çünki bütün ərazilərimizdə suverenliyi təmin etmək imkanlarımız yox idi. Bu da işğal faktı ilə bağlı idi. Bu missiyanı da Azərbaycan cəmiyyətini daha doğru təşkilatlandıra bilən və Heydər Əliyevin qoyduğu təməl üzərində bu strategiyanı davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyev gerçəkləşdirə bildi.

İlham Əliyev də Heydər Əliyev siyasətində olan beynəlxalq güclər neytrallaşdırmaq və bəzən də onların qarşısında şəxsiyyətli dövlət duruşu sərgiləmək ilə bunu edə bildi. Kimin ağlına gələrdi ki, Azərbaycan nə vaxtsa Fransa kimi dövlətlə başabaş gələ bilər, ittihamlarına, taktikalarına cavab vermək iradəsini ortaya qoyar? Bu, Azərbaycanın mövcud gücünün əsas nümayişi, həm də həmin strategiyanın davamı idi. Böyük güclərlə həmişə dirəniş göstərmək fayda vermədiyi kimi, böyük güclər qarşısında həmişə aciz olmaq da xalqın, dövlətin tənəzzülünə gətirib çıxara biləcək amillərdən biridir. Bu anda çevik manevr edə biləcək və qətiyyətli xarakter göstərə biləcək bir düşüncəyə sahib olmalısan. Prezident İlham Əliyev də Azərbaycan dövlətini məhz bu cür təqdim etməyi bacardı. Hər kəs Azərbaycanla hansısa üslubda danışmaq, ölkəmizə qarşı hansısa addımlar atmaq imkanının olmadığını gördü.

*Heydər Əliyevin doğum günü Azərbaycan üçün ciddi bir hadisədir. Bu, Azərbaycan cəmiyyətində həm sovet dönəmində, həm də müstəqillik dövründə xilasedici bir missiya həyata keçirmiş şəxsiyyətin doğum günü kimi qeyd olunur. Çünki tarixi anda xalq bəlli bir prosesi irəli apara bilmirsə, uduzursa, sonra onun dirçəlməsi yüz illər çəkir. Məhz o tarixi anda Heydər Əliyevin Azərbaycanı müəyyən təhlükələrdən qoruması və dövlət olaraq sistemini bu səviyyədə irəlilədə bilməsi, dövlətin varislik məsələsini ağıllı şəkildə həll etməsi bizim bugünkü qələbəmizin, duruşumuzun əsas səbəblərindən biridir. Heydər Əliyevin tarixi xidmətləri qiymətləndirilməlidir. Azərbaycan xalqı da haqqı tanıyan, hər kəsin əməyini dəyərləndirən xalq kimi onun xatirəsini heç vaxt unutmayacaq, onun adını əbədi olaraq öz tarixinin ön cərgəsində yazacaq.*

**Fazil MUSTAFA,**
***Milli Məclisin deputatı,***
***Böyük Quruluş Partiyasının sədri***

Azərbaycan. - 2025.- 10 may (№95).- S.11.